

# Akademik Zərifə Əliyevanın anadan olmasının 102 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans

*Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində görkəmli oftalmoloq-alimin anadan olmasının 102 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.*

Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə keçirilən konfransda Milli Oftalmologiya Mərkəzinin həkimləri, ölkənin müxtəlif bölgələrindən gəlmiş oftalmoloqlarla yanaşı, Rusiya, Türkiyə, İtaliya, Gürcüstan və digər ölkələrdən də tanınmış mütəxəssislər iştirak ediblər.

Ənənəvi xarakter daşıyan konfrans oftalmologiya sahəsində əldə olunan son elmi nailiyyətlərin və tibbi texnologiyaların müzakirəsi, yerli və xarici mütəxəssislərin təcrübə mübadiləsi üçün mühüm platformadır. Konfransın əsas məqsədi oftalmologiyanın aktual məsələləri, yeni diaqnostika və müalicə metodlarının təhlili, eyni zamanda gələcək hədəflərin müəyyən edilməsidir.

Konfransda "Akademik Zərifə Əliyevanın işığında oftalmologiyanın gələcəyi", "Paul qlaukoma implantı, qısamüddətli nəticələr", "SMILE PRO - lazer görmə korreksiyasının innovativ üsulu", "Azərbaycanın regionlarında uveitin epidemiologiyasının təzahürləri", "Tor qişanın vitreoretinal cərrahiyyəsi: qeyri-standart hallar", "Oftalmoloji yardımın III etapında göz travmatizmi ilə bağlı təcili və təxirəsalınmaz müraciətlərin regional xüsusiyyətləri" və s. mövzular həm nəzəri biliklərin, həm də praktik təcrübənin təqdim olunmasına imkan verəcək. Elmi diskussiyalar oftalmologiya sahəsində yeni yanaşmaların formalaşmasına zəmin yaradıb.

Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Elmi-məlumat, təşkilati-metodik bölməsinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva konfransın keçirilməsində əsas məqsədin elmi yeniliklərin və təcrübələrin bölüşülməsindən ibarət olduğunu deyib. Bildirib ki, akademik Zərifə Əliyeva Azərbaycanda elmi yeniliklərin təşəbbüskarı olmaqla, həm də həkimlər arasında dostluq və həmrəylik məktəbinin əsasını qoyaraq "Biz birlikdə güclüyük" devizi altında bilik və təcrübə mübadiləsinə xüsusi töhfə verib. Zərifə xanım həm elmi, həm də ictimai fəaliyyəti ilə həkimlər üçün nümunə olub. O, əsərlərində yüksək əqidənin və mənəvi dəyərlərin həkim peşəsinin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb, tibbi biliklə yanaşı, yüksək tərbiyənin də vacibliyini qeyd edib. Görkəmli oftalmoloq-alim xeyirxah əməlləri və insani davranışı ilə tibb ictimaiyyətinə örnək olub. O, həkimlərə pasiyentlərinə doğmalıq və səmimiyyətlə yanaşmağı tövsiyə edib. Zərifə Əliyevanın fəaliyyəti ilə tanış olan dünyaşöhrətli alimlər onun haqqında dərin ehtiram və sevgi dolu fikirlər bildirirlər.

Zərifə xanımın zəngin elmi irsinə sadiq qalaraq, mərkəzimizdə peşə oftalmologiyası sahəsində elmi-tədqiqatlar uğurla davam etdirilir. Mərkəzin direktoru Elmar Qasımovun rəhbərliyi altında gənc alimlər bu işdə böyük fəallıq nümayiş etdirirlər. Fəxrlə deyə bilərik ki, bu gün Azərbaycan oftalmologiyası yüksək inkişaf mərhələsindədir. Hazırda həm mərkəzin özündə, həm də Gəncə, Şəki və Masallı filiallarında ölkəmizdə oftalmoloji xidmətin optimallaşdırılması istiqamətində genişmiqyaslı işlər aparılır. Ötən ildən etibarən isə Prezident İlham Əliyevin "Böyük Qayıdış" Proqramına dəstək olaraq, Avtomobil Səyyar Klinikası vasitəsilə Cəbrayıl, Xankəndi, Laçın və digər işğaldan azad olunmuş ərazilərdə yüksək səviyyəli tibbi aksiyalar həyata keçiririk.

Azərbaycanın tanınmış oftalmoloq-alimi, akademik Zərifə Əliyeva oftalmologiya sahəsində müstəsna xidmətləri ilə yadda qalıb. Onun elmi fəaliyyəti təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Akademik Zərifə xanım Əliyeva öz elmi fəaliyyəti ilə Azərbaycanda bir zamanlar geniş yayılmış traxomanın tədqiqi və aradan qaldırılması, həmçinin peşə ilə bağlı göz xəstəliklərinin profilaktikası və müalicəsi sahəsində xüsusi elmi töhfələr verib. O, "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri", "İridodiaqnostika", "Şəkərli diabet zamanı gözün patologiyası", "Oftalmologiyanın aktual problemləri" kimi fundamental əsərlərin, 150 elmi işin, 14 monoqrafiyanın və 12 səmərələşdirici təklifin müəllifidir. Akademik Zərifə Əliyevanın adı bu sahədə yetişmiş bir çox yüksəkixtisaslı mütəxəssisin formalaşmasında xüsusi hörmətlə çəkilir.

**Tacir SADIQOV,**
**"Respublika".**